**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**FAKULTƏ BİZNES VƏ MENECMENT**
**«Biznes və logistika» kafedrası**

# "Ehtiyatların idarə edilməsi" fənni üzrə
işçi tədris proqramı
(sillabus)

Təsdiq edirəm
«Biznes və loqistika» kafedrasının müdiri,
dos.Əliyev M.Ə.
09sentyabr 2025-ci il

I. Fənn haqqında məlumat

| | |
|---|---|
| Fənnin kodu | 00255 |
| Fənnin növü | əsas |
| Tədris ili | 2025/2026 |
| Tədris semestri | payız |
| Tədris forması | əyani |
| Qrup | 942-944 |
| Tədris yükü | 60 saat ( 30 saat mühazirə, 30 saat seminar) |
| Kredit sayı | 6 |

II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim i.ü.f.d.,baş müəllim Hacıyeva A.M.
e-mail aytaj_hajiyeva@unec.edu.az

**Bakı -2025**

## “Ehtiyatların idarə edilməsi” fənninin tədrisinin əhəmiyyəti

Dünyada baş verən sürətli dəyişikliklər, qloballaşma, texnoloji inkişaflar, elmin,biliyin əhəmiyyətinin artması,xüsusilə, informasiya və kommunikasiya texnologiyaları sahəsində baş verən böyük inkişaflar biznes proseslərinə dərindən təsir etməkdədir və köklü dəyişikliklərə səbəb olmuşdur. Belə bir şəraitdə müəssisələrin rəqabət qabiliyyətini artıran və hətta mövcudluğunu davam edə bilmək üçün şaxələnən,eləcə də sürətlə dəyişən istehlakçı tələblərini vaxtında, aşağı qiymətə ödəmək ,onları sərfəli və keyfiyyətli məhsullarla təmin etmək zərurətə çevrilmişdir. Müəssisələrin sürətlə dəyişən və geniş çeşidli istehlakçı tələblərinə uyğun olaraq daha keyfiyyətli, daha ucuz və vaxtında mal və xidmətlərin istehsalı, çatdırılması və intensivləşən rəqabət şəraitində mövcudluğunu davam etdirməsi ehtiyacı “Ehtiyatların idarə edilməsi” fənninin əhəmiyyətini daha çox artırmışdır.

## “Ehtiyatların idarə edilməsi” fənnin tədrisinin məqsədləri

*Bu fənn istehlakçı tələbi, məhsulların paylanması və transformasiyası prosesləri daxil olmaqla, bütün təchizat zəncirinə aid olan inventar idarəetmə prinsiplərini, konsepsiyalarını və texnikalarını izah edir. Əsas diqqət bütün funksiyaların qarşılıqlı əlaqəsinə və inventar idarəetməsinin nəticələrinə yönəldilir. Müştərilərə effektiv xidmət göstərərkən malların saxlanması xərclərinin azaldılması üsul və vasitələri əhatə olunur.*

*Fənnin tədrisində **məqsəd** tələbələrdə ehtiyatların idarə edilməsi sahədə hərtərəfli, sistemləşdirilmiş, dərin biliklərin formalaşdırılması, müxtəlif profilli müəssisələrdə ehtiyatların rasional qiymətləndirilməsi və hesablanması üçün praktik bacarıqlarını aşılamaq, onları bunun üçün zəruri metodlarla tanış etməkdir.*

Fənnin öyrənilməsinin əsas vəzifələrini aşağıdakılar təşkil edir:

- Tələbələri mal ehtiyyatlarının iqtisadi funksiyaları və onların xarakteristika barədə məlumatlandırmaq, onların formalaşması və vəziyyətinin göstəricilər sistemi haqqında praktik biliklər vermək;
- Ehtiyatların optimallığının qiymətləndirilməsi metod və formalarının mahiyyətini və təbiətini izah etmək;
- Tələbələrdə ehtiyatlara tələbın öyrənilməsi, proqnozlaşdırılması və planlaşdırılması səriştələrini formalaşdırmaq, müxtəlif sahə bazarlarında rəqabət şəraitinin təhlili bacarıqlarını aşılamaq;
- Ehtiyatların idarə edilməsi prosesləri və mexanizmləri ilə tanışlıq, habelə ehtiyatların səmərəli idarə olunmasında anbar təsərrüfatının funksiyalardan istifadəni öyrənmək;
- Sifarişlərin icra müddətinin və ehtiyat miqdarının planlaşdırılma metodlarını təcrübədə tədbiq etmək bacarıqlarını aşılamaq;
- Arzuedilməz ehtiyatların artığı və onların ləğv edilməsi alətlərindən istifadə imkanlarını göstərmək;

- Tədris prosesində kursun mövzuları üzrə praktik keyslər, çalışma və məsələlər tətbiq etməklə tələbələrdə təhlil, qiymətləndirmə və tədqiqat aparmaq bacarıqlarını aşılamaq;
- Təlim prosesində tələbələrdə standart və qeyri-standart məsələləri həll etmək üçün lazımi bilik, bacarıq və vərdişlərin öyrənilməsini təmin etmək, sərbəst fikir yürütmə, müzakirə etmə və komanda şəklində işləmək bacarıqlarını inkişaf etdirmək.

**Tələbənin kursun mənimsəməsi nəticəsində formalaşan kompetensiyaları**.

"Ehtiyatların idarə edilməsi" fənni bakalavriat səviyyəsində 050401 "Beynəlxalq ticarət və logistika" ixtisası üzrə təhsil alan tələbələrə bazar iqtisadiyyatı şəraitində ehtiyatların idarəedilməsi sisteminin ümumi əsasları, komponentləri və məqsədləri barədə zəruri baza biliklərini təqdim edir, müxtəlif sistemlərdə maddi axınlarının, informasıya, maliyyə və insan resurslarının planlaşdırılması və nəzarətin təşkili, tələbin proqnozlaşdırılması, ehtiyatların istehlak göstəriciləri ilə bağlı təhlili nəticəsində ehtiyatların optimal idarəetmə strategiyalarının hazırlanması bacarıqları və vərdişlərini aşılayır.

"Ehtiyatların idarə edilməsi" fənninin mənimsənilməsi nəticəsində təhsil alan aşağıdakı peşə səlahiyyətlərinə malik olur:

- Öyrənilən fənni müstəqil mənimsəmək və peşəkar fəaliyyətdə effektiv idarəetmənin metodoloji əsaslarından istifadə etmək bacarığı;
- Ehtiyatların potensial dövriyyəsinin qiymətləndirmək, malların xüsusiyyətlərindən asılı olaraq sifariş dövrünün vaxtının müəyyən etmək bacarığı;
- İdarəetmə və təşkilatla bağlı baza biliklərə yiyələnmək, ixtisas üzrə məlumatları analitik və sistematik şəkildə təhlil edə bilmək;
- Biznesin idarə edilməsi üzrə müvafiq fəaliyyət və metodları təklif etmək və planlasdırmaq, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmə bacarığına sahib olmaq.
- Məhsul və xidmətlərin beynəlxalq bazarlarda satışının təşkili biliklərinə sahib olmaq, xarici ticarət əlaqələrində yarana biləcək problemləri həll etmək bacarığı və s.

**"Ehtiyatların idarə edilməsi" fənninin mənimsənilməsi nəticəsində təhsil alan bilməli, bacarmalı və aşağıdakı peşə səlahiyyətlərinə malik olmalıdır:**

**Bilməlidir:**

-Ehtiyatların mahiyyəti, onların məqsədi və iqtisadi məzmununu;
-Müəssisənin istehsal-təsərrüfat fəaliyyətində ehtiyatların yerinə yetirildiyi funksiyaları;
-Müəssisədə ehtiyatlardan istifadənin səmərəliliyinə təsir edən amilləri müəyyənləşdirmək və təhlil etmək;
-Ehtiyatların funksional təsnifatını xarakterizə etmək və onları strukturlaşdırılmaq;
-Ehtiyatların yaranma şərtləri və səbəblərini;
-İtirilmiş məhsulların dəyəri anlayışını və onların xüsusiyyətlərini;

**Bacarmalıdır:**

-Mürəkkəb təsərrüfat sistemlərini təhlil etmək, əlaqələri aşkarlamaq, qeyri-müəyyən şəraitdə tələbin həcmini, sifarişlərin dövrünü müəyyən etməyi və ehtiyatların qənaətli həcm formulunu tədbiq etməyı;

-Konkret vəziyyətlərin təhlilində iqtisadi və idarəetmə xarakterli problemləri müəyyənləşdirmək, müəssisə ehtiyatlarından istifadənin iqtisadi səmərəliliyinin meyarlarını və göstəricilərini müəyyən etmək;

-Ehtiyatlara investisiyaların optimal həcminin qiymətləndirilməsini aparmaq;

-Mal ehtiyatlarını tamamlama prosesini təşkil etmə mərhələsində müxtəlif variantları təhlil etmək və qiymətləndirmək, riskləri və baş verən dəyişiklikləri nəzərə almaq.

**Praktik bacarıqlara və multikultural kompetentliyə malik olmalıdır:**

- peşəkar davranış, şəxsi motivasiya və planlaşdırma bacarıqları baxımından təşəbbüs göstərmək və şəxsi məsuliyyət daşımaq.
- işgüzar tətbiqlər üçün kommunikasiya və informasiya texnologiyalarından istifadə etməklə ingilis dilində şifahi, yazılı və elektron formatlarda səmərəli ünsiyyət qurmaq, hesabatlar hazırlayıb təqdim etməyi bacarmaq.

**Fənn üzrə saatların həcmi**

Fənnin tədrisi 60 saat nəzərdə tutulmuşdur: 30 saat mühazirə və 30 saat seminar dərsləri. Tövsiyə olunan nəzarət formaları – aralıq və yekun imtahandır.

**“Ehtiyatların idarə edilməsi” fənninin mövzularının tematik planı üzrə dərs saatlarının bölgüsü**

Fənnin öyrənilməsinin keyfiyyət parametrlərinin yaxşılaşdırılması üçün müxtəlif metodlardan (interaktiv mühazirə, problem seminarlar, quizlər, qrup diskussiyalar) istifadə olunur.

“Ehtiyatların idarə edilməsi” fənninin tematık planı və strukturu

| **№** | **Mövzu** | **Mühazirə** | **Seminar** |
|---|---|---|---|
| | **BÖLMƏ 1. EHTİYATLARIN İDARƏ OLUNMASI SİSTEMİNƏ GİRİŞ VƏ ƏSAS MÜDDƏALAR** | | |
| Mövzu 1 | Ehtiyatlar iqtisadi kateqoriya və təchizat zəncirində idarəetmə obyekti kimi əsas komponentləri | 2 | 2 |
| Mövzu 2 | Ehtiyatların funksional təsnifatı və onların strukturlaşdırılması | 2 | 2 |
| Mövzu 3 | Ehtiyatların idarə edilməsi modelləri, yanaşma və üsulların təkamülü | 2 | 2 |
| | **BÖLMƏ 2. TƏCHİZAT ZƏNCİRLƏRİNDƏ EHTİYATLARIN İDARƏ EDİLMƏSİ VƏ TƏLƏBİN PROQNOZLAŞDIRILMASI** | | |
| Mövzu 4 | Ehtiyatların idarə edilməsi üçün informasiya sistemi | 2 | 2 |
| Mövzu 5 | Ehtiyata tələbin həcminin müəyyən edilməsi və proqnozlaşdırılması | 4 | 4 |
| Mövzu 6 | Anbarlarda ehtiyatların hərəkəti və inventarlaşdırılması | 2 | 2 |
| Mövzu 7 | Qeyri-standart vəziyyətlərin üçotu və qeyri-müəyyənlik şəraitində ehtiyatların idarə edilməsi | 2 | 2 |
| | | | |
| | | | |
| | **BÖLMƏ 3. EHTİYAT SİYASƏTİ, OPTİMALLAŞDIRMA VƏ SİFARİŞLƏRİN PLANLAŞDIRILMASI** | | |
| Mövzu 8 | Ehtiyat siyasəti və ABC-XYZ analizi əsasında ehtiyatların idarəedilməsi strategiyasının hazırlanması | 2 | 2 |
| Mövzu 9 | Sifariş dövrünün müəyyən edilməsi və ehtiyatların həcminin planlaşdırılması | 4 | 4 |
| Mövzu 10 | İnteqrasiya edilmiş sistemlərdə ehtiyat idarəetməsi və material tələblərinin planlaşdırılmasında beynəlxalq təcrübə: Kanban üsulu, MRP, DRP, ERP və Just-in-Time | 4 | 4 |

| | | | |
|---|---|---|---|
| Mövzu 11 | Mal ehtiyatlarının yenilənməsi və bərpa prosesi (Inventory Restocking | 2 | 2 |
| Mövzu 12 | Qeyri-likvid və arzuedilməz ehtiyatlar və onların ləğv edilməsi üsulları | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | **Cəmi** | **30** | **30** |

Fənnin maddi-texniki təminatı:

Proqram təminatı: Microsoft Power Point, Microsoft Office Word, Microsoft Office Excel

Texniki təminat: mühazirələr təqdimatların nümayiş etdirilməsi üçün multi-mediya avadanlığı və lövhələri ilə təmin olunmuş ixtisaslaşdırılmış auditoriyalarda keçirilir.

**Əsas ədəbiyyat:**


1. *Schreibfeder, Jon.* **Effective inventory management.** Achieving Eff ective Inventory Management Jon Schreibfeder Third Edition, A manual for specialists, 2006
2. Donald Waters, Inventory Control and Management, 2nd ed. John Wiley & Sons Ltd, England
3. *Doç.Dr.Nil Aras, Dr.Öğr.Üyesi Bahar Suvacı,* **Depolama ve envanter yöntimi**, Anadolu Üniversitesi. Yayınları: Eskişehir 2016
4. *Куценко, И.Н. Корабейников,* **Системы управления запасами в цепях поставок** : учебное пособие / Е.И.; Оренбургский гос. ун-т. - Оренбург: ОГУ, 2019.
5. *Стерлигова А.Н.* **Управление запасами в цепях поставок**. НИЦ Имфра-М. 2024
6. *Ю. В. Бородач В. Ю. Припотень Д. О. Бецан*, **Логистика складирования, снабжения и распределения,** учебное пособие / — Алчевск : ГОУ ВПО ЛНР «ДонГТУ», 2020.


**Əlavə ədəbiyyat**

**<u>Əlavə ədəbiyyat</u>:**


7. Kağnıcıoğlu, C. H. Aydın, S. Hasgül, S. ve Anagün, **Üretim Yönetimi**. Anadolu Üniversitesi Açıköğretim Fakültesi Yayınları: Eskişehir. *A. S.* 2018.
8. *Kaya, N*. **Stok Yönetimi**. İksad Yayınları: Erzurum. 2020.
9. *Küçük, O.* **Stok Yönetimi: Ampirik Bir Yaklaşım.** Seçkin Yayınları: Ankara. 2018.
10. *S.Chopra, P.Meindl.* **Tedarik Zinciri Yönetimi: strateji,planlama və operasyon.** 2021 (türk dilinə tərcümə)
11. *de Kok, T.* **Inventory management: Modeling real-life supply chains and empirical validity.** Foundations and Trends in Technology, Information and Operations Management, 11(4), 343-437. 2018.
12. **Управление закупками и запасами в цепях поставок** - Сергеев В.И., Эльяшевич И.П. - НИЦ ИНФРА-М - 2024 - https://znanium.com/catalog/product/2081761 - 453667 - ZNANIUM
13. **Управление закупками и запасами в цепях поставок** : учебник, Сергеев, В. И., 2023

14. **Управление запасами в цепях поставок** - Стерлигова А. Н. - НИЦ ИНФРА-М - 2024 - https://znanium.com/catalog/product/2019755 - 349533 - ZNANIUM
15. **Управление запасами в цепях поставок** : учебник для вузов, Стерлигова, А. Н., 2014
16. *Стерлигова А.Н.* **Две точки зрения на запас** // Менеджмент и менеджер. – Киев: Менеджмент XX1 века, 2004.
17. *Пилипцук.С.Ф.* **Складирование и управление запасами.** Учебное пособие, в-е изд, 978-5-507-46539-2 2023.
18. *Бочкарев А.А.* **Управление надежностью и устойчивостью цепей поставок.** учебное пособие для вузов 2-е изд., стер. 2023

**İnternet resursları:**

19. The Complete Guide To Inventory Management, inventory-management-pdf
20. Inventory, sa_mar10_inventory

Грейз, Г.М., Управление запасами в логистических системах: методические указания по самостоятельной работе / Г.М. Грейз. – Челябинск. – 50 с. Upravlenie-zapasami-v-/logisticheskih-sistemah.pdf

**SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.
6) Seminar məşğələsində müasir, interaktiv tədris metodlarından (Quiz, Kahoot, kiçik qruplarda iş (teamwork), işgüzar oyunlar, xüsusi nümunələrin (case-study) öyrənilməsi və təhlili və s.) istifadəyə hazır olmalıdır.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında

həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

Hazırladı: b.m Hacıyeva A.M

